**Pakistan İslam Respublikasının İqra Universitetinin "İlyas Hüseynov adına Qəhrəmanların Övladları üçün Təqaüd Proqramı"**

**Ümumi məlumat:** Pakistan İslam Respublikasının nüfuzlu ali təhsil müəssisələrindən olan İqra universiteti 1-ci Qarabağ müharibəsi zamanı qəhrəmanlıq göstərmiş İlyas Hüseynovun xatirəsinə həsr olunmuş “Ilyas Huseynov Scholarship for the Children of Heroes” adlı təqaüd proqramı elan edir.
**Ölkə:** Pakistan İslam Respublikası
**Təhsil səviyyəsi:** bakalavriat və magistratura
**Kvota:** 12 nəfər
**Son müraciət tarixi:** 31 avqust 2026-cı il
**Tədris dili:** ingilis
**Qeyd 1:** Əvvəlki təhsilini tamamilə ingilis dilində almış namizədlər isə universitet və ya müvafiq təhsil müəssisəsi tərəfindən verilmiş rəsmi tədris dilinə dair Arayış təqdim etməklə ingilis dili biliyini təsdiq edə bilərlər. Bu halda beynəlxalq dil sertifikatının təqdim edilməsi tələb olunmur.

**Qeyd 2:** Əvvəlki təhsil səviyyəsini ingilis dilində bitirməyən namizədlər də proqrama qəbul üçün müraciət edə bilərlər. Belə namizədlər İqra Universitetinin Qəbul Ofisi tərəfindən təşkil olunan onlayn ingilis dili biliyi imtahanında və onlayn müsahibədə iştirak etməlidirlər. Universitetin akademik tələblərinə uyğun olaraq, zərurət yarandığı təqdirdə, həmin namizədlərdən ingilis dili üzrə hazırlıq kursunu keçmələri tələb oluna bilər.

**Qeyd 3:** Bununla yanaşı, ingilis dili biliyini hansı sənədlə təsdiq etməsindən asılı olmayaraq, bütün namizədlər ingilis dili üzrə ünsiyyət və anlama bacarıqlarının qiymətləndirilməsi məqsədilə İqra Universitetinin Qəbul Ofisi tərəfindən keçirilən onlayn müsahibədə iştirak etməlidirlər.

**Maliyyələşmə:** təhsil haqqından tam azadolma (100%), ödənişsiz yataqxana, ödənişsiz qidalanma və universitet tərəfindən kampus daxilində gediş-gəliş nəqliyyatı ilə təminat.

Müraciət üçün tələb olunan meyarlar və təqaüd proqramı barədə ətraflı məlumatı **keçiddən** əldə etməyiniz mümkündür.